# İslam İnkişaf Bankı ilə çox uğurlu və səmərəli əməkdaşlıq həyata keçirilir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da İslam İnkişaf Bankı qrupunun prezidenti Məhəmməd Süleyman Əl-Casiri qəbul edib. AZƏRTAC xəbər verir ki, qəbula görə minnətdarlığını bildirən Məhəmməd Süleyman Əl-Casir paytaxtımızda gördüyü inkişaf proseslərinin onda dərin təəssürat hissi doğurduğunu bildirdi.

2

# İslam İnkişaf Bankı ilə çox uğurlu və səmərəli əməkdaşlıq həyata keçirilir



*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev Azərbaycanla İslam İnkişaf Bankı arasında çox uğurlu və səmərəli əməkdaşlığın həyata keçirildiyini vurğulayaraq bunu yüksək qiymətləndirdi. Ölkəmizin həyata keçirdiyi layihələrə bankın verdiyi dəstəyə görə minnətdarlığını bildirən dövlətimizin başçısı həm regional səviyyədə inkişaf prosesləri, həm də artıq ölkəmizdə icra olunmağa başlanan "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" baxımından əməkdaşlığın gələcək formatının müəyyənləşdirilməsinin zəruriliyini vurğuladı.

Qonaq qeyd etdi ki, İslam İnkişaf Bankı Azərbaycanın bu təşkilata üzvlüyündən fəxr hissi keçirir və ölkəmiz həmişə fəal iştirakçı olmaqla bu qurumun fəaliyyətinə böyük töhfə verir. Əməkdaşlığımızın uğurlu tarixə malik olduğunu deyən Məhəmməd Süleyman Əl-Casir həyata keçirilən birgə layihələrin Azərbaycanda iqtisadiyyatın, o cümlədən infrastrukturun inkişafı baxımından önəmini qeyd etdi, əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu bildirdi.

Məhəmməd Süleyman Əl-Casir eyni zamanda bankın "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" çərçivəsində perspektiv layihələrə də maraq göstərdiyini vurğuladı, gələcəkdə ticarət və investisiya sahələrində əməkdaşlığın həyata keçirilməsinin mümkün olduğunu dedi. O, Azərbaycanın müxtəlif sahələrdə, o cümlədən elektron hökumət sahəsində əldə etdiyi uğurlu təcrübənin bank tərəfindən digər ölkələrdə də tətbiq oluna biləcəyini bildirdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev dünyada yeni çağırışların mövcud olduğu bir dövrdə bundan sonra da əməkdaşlığımızın uğurla davam etdiriləcəyinə əminliyini ifadə etdi. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə bir daha toxunan dövlətimizin başçısı bu baxımdan Qarabağda və Şərqi Zəngəzurda yenidənqurma layihələrinin bizim üçün ən prioritet sahələrdən biri olduğunu vurğuladı. Prezident İlham Əliyev "Şərq-Qərb" nəqliyyat dəhlizi, rəqəmsal transformasiya və bərpaolunan enerji sahələrinin də ölkəmizin iqtisadi inkişafında mühüm yer tutduğunu bildirdi və qeyd etdi ki, bütün bunlarla bağlı həyata keçirilən layihələrə xeyli sayda tərəfdaş və investor cəlb edilib və ediləcək. Dövlətimizin başçısı dedi ki, ölkəmizin uğurlu coğrafi mövqedə yerləşməsi və yaradılan əlverişli biznes mühiti, zəngin iqtisadi potensialımız gələcək əməkdaşlıq və inkişaf prosesləri üçün yaxşı zəmin yaradır.

Azərbaycan. - 2023.- 28 fevral.- S.1-2.